


# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 1 (75) / 2022

# Gəlmişəm, Şuşam mənim!

*Qalib sərkərdəmiz İlham Əliyev: “Əziz Şuşa! Sən azadsan! Əziz Şuşa! Biz qayıtmışıq! Əziz Şuşa! Biz səni dirçəldəcəyik!”*




Rəsm: Nərmin Abdullayeva

**Bu Şuşanın Qalasıdır, daşıdır.**
**Bu daşları babalarım daşıdı...**
**Pənah xanın, Natəvanın yurdudu**
**Mənim qeyrət üzüyümün qaşıdı!**

**İstəklimdir, bu sevdadan dəliyəm!**
**Buluduyam, yağışıyam, seliyəm,**
**Bu Şuşanın, bu Şuşanın,**
**Şuşanın!**

**Torpağında dərdlərimin davası,**
**Damarında qaynamaqda havası**
**Bu Şuşanın, bu Şuşanın,**
**Şuşanın!**

**Cıdır düzü dağdan atdı zülümü,**
**Əllərindən üzəmmərəm əlimi!**
**Bu Şuşanın, bu Şuşanın,**
**Şuşanın!**

**Qalib ordum sevindirdi hər yeri.**
**Cəngavərdir sərkərdəsi, əsgəri!**
**Bu Şuşanın, bu Şuşanın,**
**Şuşanın!**

**Kim deyər ki, bu qələbə nağıldı?**
**Başı üstən qara duman dağıldı**
**Bu Şuşanın, bu Şuşanın,**
**Şuşanın!**

**Dolaylarda daşa dönnəm-yaşaram,**
**Göylərində quşa dönnəm-yaşaram,**
**Bu Şuşanın, bu Şuşanın,**
**Şuşanın!**

**Ramiz**
**MƏMMƏDZADƏ**





**Şəhla Qəmbərova**
Əməkdar mədəniyyət işçisi

Xoş gördük, dostlar!

"Göy qurşağı" bu il 16 yaşını tamam edir. İndiyədək az öyrənib-öyrətmədi. Uşaqların intellektual səviyyələrinin artmasına xidmət edən “Göy qurşağı” jurnalının özünəməxsus ədəbi-bədii istiqaməti var. Jurnalda Azərbaycanın ən çox sevilən uşaq yazarlarından - Sevinc Nuruqızı, Solmaz Amanova, Rafiq Yusifoğlu, Zahid Xəlil, Gülzar İbrahimova, və başqalarının əsərləri dərc olunur. “Göy qurşağı”nın səhifələrində sizə maraqlı olan hər bir mövzu haqqında məlumat tapa bilərsiz. Dərgidə mütəmadi olaraq uşaq və yeniyetmələr arasında müxtəlif mövzuları əhatə edən müsabiqələr keçirilir, həmçinin Sizin maraq dairənizinə uyğun yeni rubrikalar yaradılır.

Uşaqlar, əgər yadınızdadırsa jurnalın İncəhörüm adlı qəhrəmanı var. O həm balacaların, həm də böyüklərin dostudur. Çoxsaylı xahişlərinizi nəzərə alaraq, İncəhörüm artıq bütün rubrikalarda sizləri müşayiət edəcək.

Gəlin, sizə İncəhörümün hekayəsini danışım:

Günlərin bir günü İncəhörüm uzun bir səyahətə çıxdı ...

O, qayıqla, gəmiylə, avtobusla, piyada, qatar və təyyarə ilə səyahət edib, bütün şəhərlərimizi, kəndlərimizi qarış-qarış gəzdi, məktəblərdə, tarlalarda, meşələrdə, dağlarda oldu və hər yerdə özünə yeni dost tapdı. Təcrübəli və ağıllı insanlardan çoxlu nağıl və əfsanələr, məsəllər və tapmacalar öyrəndi, mahnılar eşitdi, çoxlu kitab oxudu, kitabxanamıza gəlib baş redaktorla dost oldu və burada məskan salmaq istədi. Öyrəndiyi və bildiyi hər şeyi jurnalımızda danışdı. Bütün uşaqlar ağıllı, nadinc, maraqlı və savadlı İncihörümü çox bəyəndilər, “Göy qurşağı”nın dostu olmaq istədilər və İncihörümü ziyarətə dəvət etməyə, öz hekayələrini ona danışmağa başladılar.

Çoxları, nəinki uşaqlar, hətta böyüklər də jurnalın ünvanına məktublar yazmağa, şəhərləri haqqında danışmağa, rəsmlər, şeirlər və nağıllar göndərməyə başladılar. Və bununla uşaq və yeniyetmələr üçün maraqlı jurnal yarandı.

Əziz uşaqlar!

Savadlı, intellektual gələcək naminə hər birinizə maraqlı kitablar və mütaliə arzu edirəm!

# “Həyata Kitabla addımla”








1 mart 2022-ci il tarixində Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə “Həyata kitabla addımla” adlı tədbir keçirildi. Tədbirin keçirilməsində əsas məqsəd uşaq ədəbiyyatına olan marağı artırmaq, uşaqları mütaliəyə cəlb etmək, həmçinin oxu və mütaliə vərdişlərinin bədii təfəkkürün inkişafında rolunu artırmaqdır. Tədbirdə iştirak edən Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhid övladlarına kitablar hədiyyə olundu, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin uşaqlarının ifasında dünya ədəbiyyatından nağıl qəhrəmanlarının kompozisiyası və konsert proqramı təqdim edildi. “Ulduz” şokolad fabrikinin hədiyyələri uşaqları sevindirdi.

Kitabxananın direktoru Şəhla Qəmbərova çıxışında qeyd etdi ki, İnsanlara bəxş edilən ən müqəddəs duyğulardan biri də onun Allahına, dininə, vətəninə, millətinə, haqqa və ədalətə olan sonsuz sevgisidir. O sevgi ki, insanları bu dəyərləri uğrunda ölməkdən belə çəkindirmir. Vətən və milləti uğrunda namus və şərəfi ilə ölənlərdir ŞƏHİDLƏR.







**Əziz balalar. Sizin hər biriniz millətimizin, xalqımızın qürur, əyilməzlik simvolu olan şəhidlərimizin yadıgarlarısız. Siz bütün həyatınız boyu qəhrəman valideynlərinizlə fəxr etməyə, qürur duymağa layiq şəxsiyyətlərsiniz. Gələcəyimizin sizin timsalınızda intelektual gücə böyük ehtiyacı var.**

**Bunun üçün, siz dövrün, zamanın çağırışlarına uyğun elm öyrənməli, inkişafınıza təkan verən amillərə xüsusi diqqət yetirməlisiniz. Məhz bu məqsədlə, bugünkü tədbirimiz “Həyata kitabla addımla” adlanır. Çox istərdim ki, gələcəyimiz olan siz uşaqlar, bu günün məsuliyyətini düzgün başa düşüb özünüzü gələcəyə hazırlayasınız. Bu isə kitabsız, mütaliəsiz mümkün deyil.**

**Güclü, savadlı və intellekual gələcək naminə mütaliə edin!**














Zahirə Dadaşova

# ŞUŞA nağılı

Sizə hardan xəbər verim, qarafikirlilərdən, oğrulardan, yalançılardan, qonşuya xain olanlardan, vəfasızlardan, əhdinə əməl etməyənlərdən, buzov minib çay keçənlərdən, yaba ilə dovğa içənlərdən, xoruz belində bostan əkənlərdən, nə bilim nədən, nə bilim nədən... Lənət olsun quyruqlu yalana, rəhmət olsun quyruqsuz düzə. Rəhmət yazana, lənət pozana. Söz qalsın, insan getsin, yaxşılıq qalsın, pislik getsin. Dost var olsun, düşmən puç olsun, ağıllı yesin, ağılsız hesablasın.

Sizə kimdən deyim, nədən danışım. Biri vardı, biri yoxdu başı bəlalı şiş dağlar qoynunda bir gözəl vardı. Adına Şuşa deyirdilər. Pak qəlbli, şüşə kimi şəffaf, qaşı qara, gözü qara ay üzlü gözəl. Ona baxan, bir də baxım deyərdi. Aya deyərdi ki, sən çıxma mən çıxım. O sanki Qarabağ üçün doğulmuşdu. Bir-birini görən gündən aşiq idilər. Qarabağ onu dəlicəsinə sevirdi. Bağında sehrli bir gül bitirmişdi ki, dünyanın heç bir yerində o güldən yox idi. Bu gülü yalnız Şuşa tanıyırdı. O hər gün solmayan bu gülü qoxlayar, Qarabağın ətrini duyar, onunla fəxr edərdi.

Amma deyirlər ki, sən saydığını say, gör fələk nə sayır. Şuşanın gözəlliyini görənlər onu Qarabağın könlündən qoparmaq istədilər. Amma Qarabağ son qanına qədər onu yadlara vermədi. Uzun döyüşlərdən sonra onlar öz sevdalarından əl çəkdilər.

Qonşuluqda eli-obası bilinməyən, köçəri kimi Qarabağın elinə pənah gətirmiş Armen adlı bir xain yaşayırdı. Qarabağ öz elində Arменə ev tikmək üçün yer vermişdi. Bir gün Armen Şuşanın gözəlliyini görüb onu nəyin bahasına olursa-olsun Qarabağın əlindən almaq istədi. Qarabağın gücünə bələd olanda isə hiyləyə, fitnə-fəsada əl atdı. Yavaş-yavaş Qarabağla dost oldu, canından keçməyə hazır olduğunu ona göstərdi. Armen Qarabağın saf qəlbinə yol tapdı, onun bütün sirlərini öyrəndi. Şuşanın yaşadığı qalanın gizli yollarını, sehrli açarların yerini bilən xain bir gün xəyallarında arzuladığı Qarabağın sevgilisinə qovuşmaq ümidi ilə onu ələ keçirdi. Qalaya hakim oldu. Qarabağın əkdiyi sehrli gülü Şuşaya göndərdi. Amma Şuşa gülü yalnız Qarabağın əlindən alıb qoxlayardı. Və o gül şehi üstündə, heç vaxt solmazdı. Amma Armenin əli ilə dərilmiş gül solmuşdu. Şuşa xainin hiyləsini anladı. Təslim olmadan özünü şiş qayalara çırpdı, öldürmək istədi, ölə bilmədi, düşmənlər onu tutub əsir götürdülər, əl-qolunu zəncirlədilər. O gündən Şuşanın ürəyi qan, gözləri qan oldu. Sevgilisinin onu əsirlikdən qurtara biləcəyi günü gözlədi. Qarabağ isə şahinlərlə xəbər göndərdi, onu gözləməyə, təslim olmamağa, bir gün qovuşacaqlarına əmin etdi. Xain düşmən hər gün Şuşaya sovqatlar göndərir, onu yeni hiylələriylə ələ almağa çalışırdı. Şuşa- " ölərəm, sənin olmaram"- dedi və ümidlə Qarabağı gözlədi.

Nəhayət bir gün Qarabağ yurdunun ərənlərini başına topladı. Onlar dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi Qalaya yetişdilər. Qarabağ üzünü tanrıya tutub dedi: "Ədalətli Tanrım, mənə kömək ol. Məni ya öldür, ya da Şuşama yetir!"

Tanrı onun haqq səsini eşitdi. Qalada qanlı döyüşlər getdi. Ər igidlər Qarabağla birgə mərdliklə, cəsarətlə vuruşdular, od saçan nəfəsləriIə düşməni yandırıb kül etdilər. Qarabağ xain düşməni tapıb öz əllərilə məhv etdi, gözəlinə qovuşdu:

- Gözəlim, Şuşam! Sənin həsrətindən nuru öləziyən, az qala kor olan gözlərimə işıq gəldi, Elə bilirdim ki, ölmüşəm, səni görüb dirildim. Sevincdən ağladım, hıçqırdım. Bizim qovuşmağımıza ruhlar da şad oldu. Qulağıma Xanın, Bülbülün zəngulələri, ecazkar avazları gəldi. Üzeyir Qələbə marşını çaldı. Vaqifin qoşmalarını, Xan qızı Natəvanın qəzəllərini, Cıdır düzündə şahə qalxan köhlən atların kişnərtisini eşitdim.

- Könlümün məhbubu Şuşam! Səninçün o qədər darıxmışdım ki..Şükürlər olsun ki, Tanrı bizi bir-birimizə qovuşdurdu.

Beləcə Qarabağ Şuşaya qovuşdu. Göylər sevincdən ağladı.

Şuşa nağılı belə bitdi. O toy-büsatlı gecədə mən də oldum. Yedim, içdim, şənləndim. Ballı şərbət içdim, bığımdan axdı, amma ağzıma düşmədi. Göydən isə üç alma düşdü. Biri mənim, biri sənin, biri də nağılı söyləyənin. Sən sağ, mən salamat. Sən yüz yaşa, mən isə iki əlli. Hansı çoxdur özünə götür.

Nəcəfli Ayaz
Bakı şəhər 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi





# Xan qızı - 190

## Xurşidbanu Natəvan

Xurşidbanu Natəvan Şuşa şəhərində anadan olub. Qarabağın axırıncı hakimi Mehdiqulu xanın qızıdır. Natəvanın qohumlarından – bibisi Ağabəyim ağa, əmisi Nəva, dayıları Hali və Müsahib də şair olmuşlar. Belə bir ailədə yetişən Natəvan, hələ çox gənc ikən ədəbiyyat və incəsənətə böyük həvəs göstərmiş, dövrünün istedadlı şairi və rəssamı olmuşdur.

Natəvan ədəbi fəaliyyətə təxminən XIX əsrin 50-ci illərində başlayıb. Onun Azərbaycan və fars dillərində çoxlu qəzəlləri və şeirləri vardır. Natəvanın divanı bütünlüklə gəlib bizə çatmasa da, əldə olan əsərlərinə əsasən böyük sənətkar olduğunu müəyyən etmək çətin deyildir. O, Füzuli məktəbinin ən mahir davamçılarından biridir.

Natəvan Şuşa şəhərindəki ədəbi qüvvələri birləşdirmək məqsədilə 1872-ci ildə “Məclisi-üns” adlı bir məclis təşkil etmiş və uzun müddət onun rəhbəri olub.

Natəvan təkcə şairliklə məşğul olmamışdır, onun rəsm əsərləri və əl işləri bu günə kimi qorunub saxlanmışdır. Bundan başqa xeyriyyəçiliklə məşğul olmuş, Şuşa şəhərinə kəhriz də çəkdirmişdir.

Xalq öz şair qızını həmişə ehtiramla yad edir.

Bakıda heykəli, Şuşada büstü, Ağdamda qəbirüstü abidəsi qoyulub. 2016-cı il fevralın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimi keçirilib. Abidənin müəllifi heykəltəraş İmran Mehdiyevdir.







# Atlı, kimsən?

Neçə ay idi ki, bu sualı eşidirdi. Neçə ay idi ki, nənələr demişkən ayağına dəmir çarıq geymiş, əlinə dəmir əsa götürmüşdü, su gəzirdi, su axtarırdı. Azərbaycanın səfalı bucağı olan Qarabağda, Şuşa ətrafında bulaqmı, şəlaləmi azdı, dərələrdən qıjıltı ilə axan dağ çaylarımı qurumuşdu! Yox, belə deyildi. Yaşının qırxını ötürsə də, hələ də gənclik təravətini, qadınlıq incələyini bütünlüklə mühafizə edən Natəvanı at minməyə, ayaq üzəngidə, diz qabırğada dərə-təpə gəzməyə vadar edən bu deyildi. Qarabağın dərələrindən qıjıltıyla axan dağ çayları qurumamışdı, büllür bulaqlarından, çeşmələrindən diş qıran su kəsilməmişdi, sıldırım qayalardan gur şəlalərin səsi əskilməmişdi. Bu özgə dərddi, ayrı həsrət idi! O öz xalqını, öz həmşəhərlilərini susuzluqdan qurtarmaq üçün şəhərə bulaq çəkdirmək istəyirdi. Elə buna görə də dağı-daşı gəzir, Murov dağın ətəklərindən tutmuş Şuşanın ətraf kəndlərini dairə vurub keçmiş, axtarmışdı. Bu ətrafda çay qalmamışdı ki, suyundan dadmasın, çeşmə qalmamışdı ki, gözünü arıtmasın, bulaq qalmamışdı ki, yoxlamasın, şəlalə qalmamışdı ki, şaqraq nəğməsini dinləməsin.

O gah tək, gah da usta Muradla gəzirdi. Bəzən axşama düşdükdə, qaş qaralanda, bəzən də erkən çıxdığından sübhün alaca toranında çobanlara, naxırçıya, sığırcıya rast gəlir, ilk əvvəl kişi paltarında olan bu nəcib insanı tanımayanlar həmin sualı verirdilər.

- Atlı, kimsən?

Tanıdıqda isə hamı ona hörmətlə baş əyir, hamı onun bircə işarəsini gözləyir, tək bircə əmrini yerinə yetirməyə can atırdı. Axı Natəvan su gəzirdi. Bunu hamı bilirdi. Bir yük suya 15-20 qəpik verməyə gücü olmayanlar, çiynini güyüm, ovuclarını sənək qabar edənlər sevinir, şad xəbəri bir-birinə söyləyir, gözaydınlıq verirdi.

İndi də Natəvan səhərin alatoranında ocaq başına yığışanlara yetişəndə yenə bu sualı eşitdi:

- Atlı, kimsən?

Oturanlardan biri əlini gözünün üstə qoyub yavaşca dedi:

- Ə, Xan qızıdı, görmürsən?

Atlı irəli gəldi və ocaq başında oturanları tanıdı. Gənclər xanımın yaxınlaşdığını görüncə cəld özlərini irəli atdılar, Surxay üzəngidən, bala çoban cilovdan yapışdı. Natəvan qıvraq çevikliklə atdan endi, ocaq başında çubuğunu doldurmaqla məşğul olan Kərəm babaya yanaşdı. Surxan cəld yapıncısını iri daş üzərinə sərdi, şairə də yapıncının üstə oturdu. Kərəm baba soruşdu:

- Hələ axtarırsan, bəyim?

- Axtarıram baba.

- Bir şey tapmamısan?

- Su çox, yer çox...Mən istəyirəm ki, şəhərə gələn su saf olsun, sərin olsun, şirin və xeyirli olsun, baba.

Qoca fikrə getdi, sönməkdə olan çubuğunu ocaq daşına vura-vura dedi:

- Sarıbaba bulağını necə, görmüsən?

- Yox, haradadır?

- Xəlfəlidən bir az aralı olar.

- Suyu necədir?

- Kefin istəyən kimi.

- Baba, zəhmət çək, atlan, birlikdə gedəkdeyə şairə səbirsizliklə dilləndi.

- Tələsmə , qızım, bu saat uşaqlar qoyunları bura əmişə gətirəcəklər. Sən də bir piyalə süd içərsən, sonra gedərik.

Üç il keçdi. Bu üç ildə Şuşanın qərbində Xələfli kəndindən on kilometr aralı olan Sarıbaba bulağından şəhərə su kəməri çəkildi. Üç il...bu üç ildə Natəvan həftədə iki-üç dəfə atlanıb iş üstünə çıxdı, fəhlələri mükafatla və mehriban sözlərlə ruhlandırdı.



# Ələmdar Quluzadə 70




## Uşaq şairləri uşaq kimidir

Bu gün uşaq ədəbiyyatı sahəsində öz sözünü deyən şair və yazıçılarımızdan biri də 70 yaşı tamam olan Ələmdar Quluzadədir. O uzun illərdir ki, Azərbaycan dövlət radiosunun uşaq verilişləri redaksiyasının baş redaktoru kimi səmərəli fəaliyyət göstərir. Müxtəlif mövzularda nəşr etdirdiyi kitablarla oxucu məhəbbəti qazanan, onların marağına səbəb olan şair, uşaqların sevimlisi, dostudur. Onun uşaqlar üçün qələmə aldığı şeir, poema və nağıllar səmimiliyi, dilinin rəvanlığı ilə seçilir. Buna görə də Ələmdar Quluzadənin ruhuna yumor qatılan şeirləri məktəblilər tərəfindən həvəslə oxunur və tez əzbərlənir.

Əziz uşaqlar! Uşaq yazarımız Zahid Xəlil deyir ki, Ələmdar Quluzadə sizin üçün şeir yazanda çalışır ki, əhvalatlar yumoristik olsun. Siz bu əsərləri oxuyanda qaş-qabağınızı tökməyəsiniz. Üzünüzdə daim təbəssüm, gözünüzdə sevinc yaşları olsun.

Digər bir yazıçımız Nüşabə Məmmədli isə Ə. Quluzadə əsərlərinin öz səsi olduğunu vurğulayır və onun yaradıcılığını göy qurşağına bənzədir. Deyir ki, ortadan keçən çəhrayı rəng uşaqların sevinc rəngidir.

Ələmdar Quluzadə zamanın nəbzini tutan, xalqın dərdinə, sevincinə şərik olan bir insandır. Onun əsərlərini təkcə kiçiklər deyil, biz böyüklər də sevə-sevə oxuyuruq.

70 yaşın mübarək olsun, sevimli yazarımız! Sizə şövqlə yaratdığınız təravətli poetik misraların ölçüsü qədər uzun ömür diləyir, saysız-hesabsız müxtəlif janrlı əsərlər müəllifi olmağı arzulayırıq!

Duzu sözündədir, qəndi dilində,
Bütün sevincini uşaqla bölər.
Fağırının nədir, lap dəcəlin də
Xətrinə dəysəniz kövrələ bilər-
Uşaq şairləri uşaq kimidir.
Qədir də, qiymət də, baxt da baxtabaxt,
Uşağın könlünü sıxmayın, nolar.
Uşaq şairinin yanında heç vaxt
Uşağa uşaq tək baxmayın, nolar-
Uşaq şairləri uşaq kimidir.
Başının üstündə kölgə görəndə
Şehli çiçək kimi gözün sıxmasın.
Uşağı aldadıb sevindirəndə
Uşaq şairləri yaddan çıxmasın-
Uşaq şairləri uşaq kimidir.
Dərdli uşaq görsə, o da qüssədə,
Ömrü neçə ömür daşıyır onun.
Saçı ağarsa da, əli əssə də
İçində bir uşaq yaşayır onun-
Uşaq şairləri uşaq kimidir.
Dünya qollarının üstündə yatıb,
Desən ki, dil bilir kaman, inanır.
Uşağın başını nağılla qatıb
Özləri nağıla yaman inanır-
Uşaq şairləri uşaq kimdir.



# XOCALI SOYQIRIMI
## UNUTMADIQ! UNUTMARIQ!

26 fevral 1992-ci il. Tarixə qara hərflərlə yazılan bir qış gecəsi. O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. Evlərə-eşiklərə od vuruldu, torpaq qana qərq edildi o gecə. Düşmən rəhm diləyən qocaya, xəstəyə, qadına aman vermədi. Uşaqlar valideynlərinin gözləri qarşısında xüsusi qəddarlıqla qətlə yetirildi. Aramsız güllə yağışından qurtulub ayağı yalın, başı açıq halda meşələrə, dağlara üz tutanların çoxusu yolda dondu, qar uçqunlarına düşdü.

Həmin gecə Xocalı sakinlərinin üzləşdikləri vəhşilikləri qələm də yazmaqda acizdir. Xocalıda 633 nəfər insan həyatına son qoyuldu bir gecənin içində. 8 ailə tamam məhv edildi, 1277 nəfər əsir götürüldü, yüzlərlə soydaşımız bu və ya digər dərəcədə bədən xəsarəti aldı. Bədnam ermənilərin törətdikləri vəhşilikləri heç nə ilə müqayisə etmək mümkün deyil.

Vəhşicəsinə qətlə yetirilmiş, işgəncələr verilmiş, şikəst edilmiş həmvətənlərimizin xatirəsi, erməni quldurlarının xalqımıza qarşı törətdiyi Xocalı soyqırımı heç zaman unudulmayacaq!

Atalar gözəl deyib: “Buynuzlu qoçun qisası buynuzsuzda qalmaz”. İşğal olunmuş torpaqlarımız Ali Baş Komandan cənab İlham Əliyevin fövqəladə yüksək rəhbərliyi, müzəffər Azərbaycan ordusunun, şəhid və qazilərimizin qanı və canı bahasına yağı, faşist düşmənlərdən bir-birinin ardınca 44 günə azad oldu. “Xocalı soyqırımını törədən mənfur düşmən döyüş meydanında məğlub oldu”.

## *Salam, Xocalı dərdim*



Mən qoynunda doğuldum, sən içimə köçmüsən,
Nağıl dili olmasın, qıl körpüdən keçmisən,
Nəyinə güvənmişəm, nəyimə and içmisən?
Toyuna, bayramına bir vaxt salam verərdim –
Salam, Xocalı dərdim!

Qırxqız mehi mizrabın, Qarqar qopuzun idi,
Çölün də, çınqılın da şəkərin, duzun idi,
Qoynuna qısılanda qolların uzun idi.
Sənə ana deyərdim, mənə oğul deyərdin –
Salam, Xocalı dərdim!

Əlim ətəyə çatmır, əlim göylərə dəyir,
Ələyənlər ələyib əyilməzləri əyir,
Yetim uşaq görəndə yaralarım göynəyir.
Bu dərd tək mənim olsa ürəyimdə çəkərdim –
Salam, Xocalı dərdim!

***Ələmdar Quluzadə***







Kitabda xüsusi maraq doğuran "Xarıbülbül və Günəşin nağılı" 44 günlük Vətən müharibəsində qazandığımız böyük Qələbəyə həsr olunub. Burda "Xeyirxah Tomi", "Ətirli dağ", "Kirpinin nağılı", "Pişik və Qurbağa" nağılları da uşaqlar üçün tərbiyəvi əhəmiyyət daşıyır.




Şuşanın sehrli açarları adlı bu nağıl-poema ilə Sizi yaşıdlarınızın qəhrəmanlıq dünyasına dəvət edirik. Qoy bizim şanlı əskərlərimizin qəhrəmanlığı sizə örnək olsun!

## Kitablarda mən hələ...












## Tarixlə ilk tanışlıq




Kitabları oxumağa tələsin.

**Qədim Misir** – 3500 il əvvəl... Keçmişə səyahət seriyası

**Qədim Yunanıstan** – 2500 il əvvəl...Keçmişə səyahət seriyası

**Avtomobillər** – Nəqliyyat – Əziz uşaqlar, bu kitabda siz avtomobilin tarixi ilə tanış olacaqsınız.




Seriyanın ilk kitabı olan "Dəfinələr adasının sirri" romanında dörd uşaq və onların sevimli köpəyi illər öncə batmış gəmidəki xəzinənin izinə düşürlər. "Möhtəşəm beşliy"i qarşıda çətin mübarizə gözləyir.




Adaya naməlum şəxslər gəlir və Kventin əmini izləməyə başlayırlar. Alimin həyatında təhlükə yaranır. Lakin dörd uşaq və köpək onların bütün planlarını pozur...




Əsərin əsas qəhrəmanları müəllifin oğlu Kristofer Robinlə oyuncaq ayı balası Vinni-Puhdur. Qəribə oyuncaqlar meşədə yaşayır, canlı varlıqlar kimi həyatın müxtəlif çətin sınaqlarından çıxırlar.

## Baxıram şəkillərə









**Hikmət Ziya**

## Kitablar

Kitablar ilk sirdaşım,
Yaxın həmdəmim mənim,
Sirlərin xəzinəsi,
Böyük aləmim mənim!..
Ləlin var, gövhərin var,
Özü yazıb-yaradan
Neçə dahi sənətkar:
“Sizə borcluyam – deyib, -
Kitablar, ay kitablar!”
Əlifba kitabından
Öyrənib dilinizi,
Ağlın söz kəsən gündən
Oxuyuram mən sizi.
Nə qədər etibarlı,
Doğma əzizsiz mənə.
Yaxşı nədir, pis nədir? –
Öyrədən sizsiz mənə.
Mən sizdən öyrənirəm
Əsil insan olmağı,
Mən sizdən öyrənirəm
Şərəflə yaşamağı.
Ötüb-keçən günləri
Yaşadansız, kitablar!
Necə boş görünərdi
Dünya sizsiz, kitablar,
Ey əvəzsiz kitablar!
Tarixə dönən günlər,
Aylar, illər sizdədir.
Babaların söhbəti
Sizin qəlbinizdədir.
Onları bircə-bircə
Neçə-neçə nəslə siz,
Müdrik ozanlar kimi
Həmişə nəql edirsiz.
Tarixin sinəsində
Vuran ürək – kitablar!
Hava kimi, su kimi
Bizə gərək, kitablar!..
Sizdən ayrılmaram mən
Ömrümün sonunadək.
Laylamı da siz çalın
Yatağımda, ana tək.

**Xanımana Əlibəyli**

## “Kitab”

İnsanlar çəkdi zəhmət,
Günü-günə qatdılar
Dünyada gözəl nemət
Kitabı yaratdılar.

Neməti təbiətin
Gün kimi işıq açdı.
Həyatda hər sənətin
Sirrini bizə açdı.

O hər zaman cavandır
Yaşı ötsə də mini,
Bizə neçə zamandır
Öyrədir Nizamini.

Çevrilib çox dillərə
Sanki sirrdir hər biri,
Yol tapıb könüllərə
O sevdirdi Sabiri.

Durub iki qəhrəman
Dolabda qoşa-qoşa.
Baxır cürətli Cırtdan
Cəsarətli Qavroşa.

Kitab sanki bir quşdur,
Mizin üstə qonmuşdur.
Kitaba salsan meyil
Səndən ayrılan deyil.





# Kitab haqqında

« Kitab-sənin ilk dostundur.
*Mirzə Ələkbər Sabir*

“ Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitab oxumağa bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin.
*Ə.H. Bəhmənyar* ”

“ Axmaqlarla otu-rub-durmaqdansa, kitabla tənha qalmaq yaxşıdır.
*Qasım bəy Zakir* ”

“ Dünyada kitabdan əziz dost yoxdur .
*Əlişir Nəvai* ”

“ Yaxşı bədii əsər oxucunun hisslərinə, dü-şüncəsinə təsir edir, onu hərtərəfli zəngin-ləşdirir.
*İlyas Əfəndiyev* ”

“ Kitablar bizim ocaqlarımızdakı od kimidir-lər: biz onları kimdənsə götürür, ocağımızı qalayır, sonra başqalarına ötürürük. Nəticədə onlar hamının malına çevrilir.
*Volter* ”

Bədii əsərin ömrü onun xalq tərəfindən bəyənilməsindən asılıdır.
*Səməd Vurğun* ”

“ Yaxşı kitab çox qiymətli xəzinədir.
*Həsən bəy Zərdabi* ”

“ Gil qabın dəyərini səsi ilə, insanın dəyəri-ni isə ağzından çıxan sözü ilə yoxlayırlar.
*Əbül Fərəc* ”



# İncəhörümün səyahəti

İstər məktəbə gedən, istərsə də məktəbə getməyə hazırlaşan hər bir uşaq başqa ölkələrdən olan uşaqların necə oxuduğunu bilməkdə yəqin ki, maraqlıdır.
Başqa ölkələrdən olan uşaqların nə vaxt məktəbə getdiyini bilmək istəyirsiniz? Onların məktəbli forması necədir? Məktəb yeməkxanasında nahar üçün nələr var? Əla cavab üçün hansı qiyməti almaq olar? Bir sinifdə neçə şagird oxuyur?
O zaman bu rubrika sizin üçündür, əziz oxucular!
Bu rubrikada bir çox suallara cavab tapa bilərsiniz. Hindistan, Yaponiya, Finlandiya, İspaniya və digər ölkələrdəki məktəblər haqqında ən maraqlı məlumatları öyrənmək istəyirsinizsə tez bizə qoşulun!






Uşaqlar 5 yaşından məktəbə gedirlər.



Tədris ili sentyabrın ilk həftəsində başlayır.

**Tanış olun, bu Cennidir, Britaniya şagirdlərindən biridir. O, bizə ingilis məktəbinin özəllikləri haqqında məlumat verəcək.**




İngiltərədə qiymətləndirmədə rəqəmlər əvəzinə hərflərdən istifadə olunur. A - əla, B - çox yaxşı, C - yaxşı, D - çox uğurlu deyil, E – kafi qiymətləndirmə hesab olunur.



Həftədə bir neçə dəfə şagirdlər nahar üçün vegetarian yemək və faydalı desertlər alırlar.

**UŞAQLAR!** Bu dəfə məni Britaniyadan məktəblilər dəvət etdilər! Gəlin, mənimlə uçaq, görək bu ölkədə uşaqlar necə yaşayır, oxuyurlar!




Onların hansı forma geyindiyini, dərslərinin necə qiymətləndirildiyini, tədrisin və tətillərin nə qədər davam etdiyini, necə istirahət etdiklərini öyrənəcəyik.

Siz bilirsiniz ki, məktəb forması Böyük Britaniyada icad olunub? İngiltərə güclü ənənələr ölkəsidir və bundan əlavə, məktəbli geyimlərinin vətənidir. Buna görə də heç kim onu ləğv etmək fikrində deyil, lakin hər məktəbə öz formasının rəngini seçmək icazəsi verilir və bu, məktəb şagirdlərinin özlərini bir komanda kimi hiss etməsinə səbəb olur.

Dərs 40 və ya 50 dəqiqə davam edir.







# QUŞ OLMAQ İSTƏYƏN AYI BALASI

İNGİLİS NAĞILI

Bir zamanlar kiçik bir ayı balası vardı. Bu ayı balasının ən böyük arzusu quş olmaq idi. Bir gün meşədəki ağacların budağında cəh-cəh vuran quşlara üzünü tutub dilləndi:

- Sabahınız xeyir, quşlar, mən də sizin kimi bir quşam.

Quşlar qəhqəhə çəkib güldülər:

- Axı sən quş deyilsən, quşların dimdiyi olur.

Bala ayi meşədə özünə dimdik axtarmağa başladı. Dimdiyə bənzər bir taxta parçasını şam ağacının qatranı ilə burnuna yapışdırdı. Quşların yanına gəlib dedi:

- Mən də artıq bir quşam! Baxın, dimdiyim də var!

- Heç elə şey olar? Quşlar nəğmə oxuyur.

Bala ayı bu dəfə ümidini itirmək üzrə idi, çünki mahnı oxuya bilmirdi. Amma meşənin kənarında cəh-cəh vuran quş dostundan nəğmə oxumağı öyrənə biləcəyini düşünürdü. Dərhal onun yanına getdi.

- Əziz dostum, nə olar, mənə nəğmə oxumağı öyrət.

- Öyrənə bilərsən? Əslində, ayıların mahnı oxumaqda elə də istedadı yoxdur. Amma istəsən, yoxlaya bilərik. Mənim söylədiklərimi təkrarla görüm: do, re, mi, fa. sol, lya, si, do...

Bala ayı günlərlə nəğməkar quşun söylədiklərini təkrarladı. Hətta müəllimi də çalışqan olduğu üçün onu çox tərifləyirdi.

Axır ki, bala ayı mahnını öyrəndi və quşların yanına gedib oxumağa başladı.

- Do, re, mi, fa, sol, lya, si, do...

- Xeyr, xeyr, - quşlar yenə etiraz etdilər: - Dimdiyin olsa da, mahnı oxusan da, sən quş ola bilməzsən. Çünki uçmağı bacarmırsan.

Kiçik ayı balası uçmağı öyrənməyə də qərar verdi.

Ayaqları üzərində hoppanıb irəli doğru atıldı, amma bu, uzununa tullanma kimi bir şey oldu. Uçmağa heç bənzəmədi.

- Quşlar, indi mənə diqqətlə baxın, - bala ayı dedi. Sonra uca bir qayanın başına çıxıb oradan özünü aşağı atdı. Qollarını quşların qanadları kimi çırpdı. Əlbəttə ki, bu hərəkət onun uçması üçün kifayət deyildi. Yuxarıdan yuvarlanan bir daş kimi sürətlə yerə çırpıldı. Hər yeri ağrıdı, qatranla yapışdırdığı taxta dimdiyi də yerindən qopdu. Bala ayı düşdüyü yerdən birtəhər ayağa qalxanda quşlar onun yanından ayrıldılar.

Bala ayı ağrıyan yerlərini ovxalaya-ovxalaya meşəyə doğru irəlilədi. Ağacların sıx yerində oturub bir az özünə gəlmək istəyəndə burnuna böyürtkən qoxusu gəldi. Həqiqətən də, arxadakı kolların üstü qırmızı böyürtkənlərlə dolu idi. Gedib yaxşıca qarnını doydurdu.

- Yetişmiş böyürtkənləri, şipşirin balı, cürbəcür meyvələri, təzə balıqları yemək və meşədə istədiyim kimi oynamaq, yəni dünyada ayı kimi yaşamaq var ikən başqalarına oxşamaq istəmək axmaqlıqdır, - deyə ayı düşündü. O gündən sonra bir də heç vaxt ayı kimi dünyaya gəldiyinə görə peşman olmadı.





**Hər şeylə maraqlananlar üçün**

Azərbaycan folklorunun ən qədim janrlarından olan əfsanələrin böyük bir qismini flora və fauna – heyvanların, quşların, bitkilərin, həşəratın yaranması, onlara məxsus müəyyən əlamət və davranışların formalaşmasının izah olunduğu mətnlər təşkil edir. Bu mətnlər heyvan və quşların insanlardan yaranması haqqında qədim təsəvvürlərin izlərini daşıyır. Şanapipik, hop-hop, kəklik quşunun yaranması, qaranquşun quyruğunun haça olması, kəkliyin ayağının qanlı olması, hörümçəyin müqəddəsliyi haqqında əfsanələr Azərbaycanda ən geniş yayılmış əfsanə nümunələridir. Bu mətnlərə görə, heyvanlar və quşlar vaxtilə insan olmuş, sonradan heyvana çevrilmişdi. Çevrilmələr nağıllar üçün də xarakterikdir, amma nağıllarda müxtəlif heyvanların cildinə girən qəhrəman əvvəlki şəklinə qayıda bilirsə, əfsanələrdə geriyə dönüşü olmayan çevrilmədir.


Nəcəfli Ayaz
3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi, "Palitra ART" rəsm studiyası

# ZOONİMİK ƏFSANƏLƏR




Çevrilmə əfsanələrdə mükafatlandırma və ya cəzalandırma şəklində təqdim olunur. Birinci variantda çevrilmə personajların öz diləyi ilə gerçəkləşir və onları biabır olmaqdan, düşmən əlinə keçməkdən, başlarına gələcək digər pis hadisələrdən qurtarır. Məsələn, bir əfsanədə deyilir ki, turac əvvəlcə bir xanımın yanında çalışan qulluqçu qız imiş. Xanımın darağı ilə saçını daradıqdan sonra darağı boxçaya büküb, taxçanın üstünə qoyur. Darağın yerini unudan qulluqcu, xanımın onu oğurluqda günahlandıracağından ehtiyat edib Allahdan onu quşa döndərməsini diləyir.

Darağın taxçada olması sonradan yadına düşür və deyilənə görə, o vaxtdan da turac quşu “xanım, taxçada-boxçada, xanım, taxçada-boxçada”, - deyə oxuyur.

***Sizə məsləhət görərdim ki, sevimli yazarımız Solmaz Amanovanın "Turac" nağılını oxuyasınız.***



# Kitablar haqqında maraqlı məlumat

## *Xarici dillərə ən çox tərcümə edilən kitab*

Antuan de Sent-Ekzüperinin 1943-cü ildə nəşr etdirdiyi “Balaca şahzadə”-sini yəqin ki, aranızda oxumayan yoxdur. Bütün zamanların ən çox oxunan və ən yaxşıları arasında özünə yer edən kitab, həmçinin Le Monde-un 1000 kitabı siyahısında da yer almaqdadır. 7-dən 70-ə hər kəsin maraqla oxuduğu bu kitab indiyə qədər 253 dil və ləhcəyə çevrilmişdir. “Balaca Şahzadə”ni isə bu yolda başqa bir nağıl kitabı olan Pinokiyo izləməkdədir.







*Kitablar ən qədim dövrlərdən bəri var olan və həyatımızın hər sahəsində ehtiyac duyduğumuz əsərlərdir. Əlindəki hər kitabın tarixi ilə maraqlanan oxucularımız üçün hazırladığımız bu yazıda kitablar haqqında maraqlı məlumatlar əldə edəcəksiniz.*




# QULLİVERİN SƏYAHƏTLƏRİ

İrland yazıçısı Conatan Svift tərəfindən 1726-cı ildə nəşr olunan “Qulliverin səyahəti” uşaq romanı kateqoriyasına girən macəra kitabıdır. Əsər ən çox oxunan dünya klassikləri arasında da yer almışdır. Gəmi kapitanı olan Lemuel Qulliverin macəralarına rast gəldiyimiz kitabda Mars planetinin iki peykindən bəhs edilir. Conatan Svift kitabda Phobos və Demios ("qorxu" və "dəhşət") adlı iki peykin həm dönmə sürətlərini, həm də ölçülərini dəqiq şəkildə izah edir. Maraqlısı isə budur ki, astronomlar Marsın adı keçən bu peykləri kitabdan 100 il sonra kəşf edirlər. Ancaq yazıçının bu məlumatları haradan, necə öyrəndiyi hələ də sirr kimi qalmaqdadır.










*Sevinj Nurugizi*

# Aghdja and Jubbulu

Surayya was a silent girl. She had never joined the children played in the yard, sitting in the corner of the house she always fed her little doll Jubbulu, combed her hair.

The conversation with Jubbulu was very interesting. Sometimes she reproached her:

-Jubbulu, you are misbehave today. You haven`t done homework. You are very lazy! You have littered up the room. You aren t a tidy girl. Then she made her voice thinner and spoke as Jubbulu:

-I am sorry, Surayya. I won`t do it again.

-OK, go and wash your hands, come and eat.

-I am not hungry yet. I don`t want to eat.

-You always do the same. You will never grow up if you don`t eat in time. You will be a little tiny girl. All the children will go to school, but you won`t.

Surayya used to make a small house and put Jubbulu in the middle of it. Sometimes she was so busy that even she forgot her father, who was fighting in the battle-field. Suddenly she remembered something, became sad and said:

-Jubbulu, when my daddy returns from the battle-field, he will buy a flowery nice dress both for you and me. He promised.

Surayya was not alone with her small favourite doll Jubbulu. She had another best friend, a white dove which she named Aghdja. Aghdja used to sit on the grapewine and look at Surayya and Jubbulu. It seemed to everyone that he understood their conversation.

Sometimes Aghdja perched on the small house which was made by Surayya. Surayya gave him water and seed. First Aghdja felt shy, then ate willingly. Sometimes he also joined the game, taking drops of water by his bill from the saucer, helped Surayya to bath Jubbulu.

Sometimes both Aghdja and Surayya and Surayya started by the voice of shooting. But Jubbulu took no heed to anything. When it happened, they used to gather their little house and went down the basement, because Surayya`s village was surrounded by Armenian villages.



The days passed. Bad news used to come from the battle-field. Surayya hadn`t got letters from her father for a long time. Their village was attacked by the enemy. The bullets fell thick and fast.

Unarmed people left the village. Surayya`s mother hardly saved her daughter`s life from that hurricane of fire. They came to their aunt who lived in the other village.

Nobody could sleep that night. But how could they sleep? After that horrible day who would be able to sleep? Either Surayya couldn`t sleep. She left Aghdja and Jubbulu in enemy`s hands.

She would never forgive herself for it. She was constantly crying. She didn`t even touch the doll, presented by aunt. Crying "Jubbulu" she burst into tears...

*To be continued...*



**Алла Ахундова**

# «СКАЗКА О ЦАРЕВНЕ НЕФТИ»




*Не в некотором царстве, а в царстве Волшебном, не в некотором государстве, а в государстве Подземном жил-был да и сейчас живет падишах Топраг, повелитель земных недр. Очень не любит падишах, когда отбирают у него подземные сокровища, а больше всего на свете не любит он волшебных превращений.*

*И когда все повинуются ему, расцветает зелёная борода Топрага весёлыми цветочками, а когда не повинуются и превращаются, очень он сердится тогда, и зарастает его борода колючками, шипами и кактусами.*

*День и ночь стережет падишах свои богатства, но пуще глаза своего бережет он дочь свою Нефтезаду, царевну нефти.*

*Спрятал он её глубоко под землёй, а над ней охрану поставил. А бедная царевна Нефти сидит под землёй и громко плачет. Не радуют её драгоценные камни-самоцветы, скучно... Есть у царевны тысячи бесконечных кос, льются они вдоль спины, да никто их не видит. Поймает Нефтезада алмазную звезду в темноте, полюбуется на свое отражение и снова плачет, - грустно...*

*Но однажды заходило ходуном Подземное царство. Это вышел человек и захотел посмотреть на царевну Нефти. А чтобы добраться до подземного царства, превратился человек в вышку буровую, и назвался Бургом. Ходит Буруг – Нефтяная вышка, сначала одной стальной ногой ступает, потом другой, на голове железная кепочка в клеточку, высоко видит, далеко слышит, что глубоко в земле – хорошо знает.*

*Далеко запрятал падишах свою царевну не найти её человеку.*

*Радуется падишах Топраг, на радостях выпустил из подземелья царевну нефти, только сам один на нее любуется, никому не показывает.*

*Был у падишаха волшебный телевизор – «Всевидящее Око». Все он по этому телевизору видел: что на земле происходит, что под землёй. Включил падишах «Всевидящее Око», заморгало оно, да и показало, как ходит по земле человек-вышка, ищет прекрасную Нефтезаду и поет:*

*Не страшны в пути преграды!*
*Нет прекрасней Нефтезады!*
*Землю всю пройду,*
*Но её найду!*

*-Ха-ха! – захохотал падишах, Топраг, - не найдёшь!*

*-Ах! – сказала Нефтезада и бросилась к экрану телевизора, чтоб получше разглядеть Буруга. Разгневался Топраг на свою дочь, заросла борода его колючками, подал он знак и унёс Поток Текучий Нефтезаду с собой и спрятал на дне моря.*

*А на дне моря сидит владычица волн морских Хазаргиса, бабушка Нефтезады. Сама Хазаргиса зелёная-зелёная, а волосы длинные, седые. Шныряют рыбки из-под её широких юбок, а вокруг раки елозят, наматывают на растопыренные клешни белые волосы Хазаргисы, словно пряжу. А Хазаргиса вяжет на спицах и получается из пряжи белый барашек. Сидит Нефтезада подле бабушки, смотрит как она вяжет и горько плачет, просит, чтоб отпустила её бабушка погулять. Согласилась, наконец, Хазаргиса. Стоит на берегу Буруг – Нефтяная вышка, и всматривается в море. Заметил Нефтезаду, побежал навстречу, протягивает к ней свои стальные руки, да не достать ему царевны.*

*А уж бабушка Хазаргиса всю пряжу стянула, гонит царевну на дно моря.*

*Растерялся Буруг, шагнул одной стальной ногой в воду, шагнул другой, да так и зашагал по морю. Остановился Буруг, опустил в воду железную руку, стал шарить по дну моря. А на дне такая суматоха поднялась, просто страшно! Бегает Хазаргиса, рвет на себе седые волосы, бурю на море затевает.*

*Продолжение следует...*







# Düşün və tap

Vüsal baba (həmişə yalan danışır) və Pərviz baba (yalnız həqiqəti deyir) evsiz pişiyi evə aparmaq qərarına gəliblər.

Pərviz baba:- Sarı pişiyi götürməyəcəyik.

Vüsal baba: - Gəl ağ olanı götürək.

Hansı pişiyi evə götürəcəklər?



Hansı daha ağırdır: bel çantası və ya çamadan?



Əvvəlcə Robotun çəkisini çamadanın və bel çantasının çəkiləri ilə müqayisə edin.







**ÜFÜQİ:**

1.Şuşa şəhərinin başqa bir məşhur adı?

3. Azərbaycan şairi, siyasi və ictimai xadim. Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri?

6. Şuşa rayonu ərazisində Qarabağ silsiləsində, dəniz səviyyəsindən 1600 metr yüksəklikdə olan bulaq?

8. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları arasında olan, Azərbaycan Respublikasının cənub-qərbində, dağlıq ərazidə yerləşən rayon ?

11. Xan. Onun dövründə Qarabağ xanlığında incəsənət, mədəniyyət və elm ən çox inkişaf etmiş, şəhər abadlaşmış, xan sarayları, yaşayış evləri, qala divarları tikilmiş, yeni-yeni məktəblər açılmışdır.

**ŞAQULİ**

2. Sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı?

4. Şuşa şəhərini döyüşlə ala bilməyən və hiyləyə əl atan xan ? 1760 il.

5. Şuşanın məşhur Qayası?

7. Azərbaycan opera müğənnisi, mahir təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı Murtuza Məşədi Rza oğlunun əsl adı?

9. Şuşa rayonunun inzibati ərazi dairəsində kənd?

10. «Balalara hədiyyə» kitabının müəllifi?




Hələ kiçikdi Türkan,
Məktəbə çatmır yaşı.
Krossvord qəzeti var,
Həm yazan karandaşı.
Qaşını çatıb baxır,
Heç bilmir sual nədir?
Mızıldanır, guya ki,
O, krossvord həll edir.
Axı hələ bacarmır,
Onu, bunu yazmağı.
Yenicə öyrənibdi,
"A" nı, "B" ni yazmağı.
Gah fikirli göründü,
Gah baxdı ora-bura.



## Gəlin birlikdə oxuyaq



ƏZİZ DOSTLAR!

Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam. Necə maraqlı və rəngarəng kitabdır!

Bu kitab ilk dəfə Böyük Britaniyanın "OUP" nəşriyyatı tərəfindən çap olunub. Bir kitabdan digərinə düşən iki uşağın macəralarından bəhs edən kitab TEAS Press Nəşriyyat evində tərcümə edilərək rəflərə düşüb.




Ben və Bella kitabın bir səhifəsindən... o birinə hoppanırdılar. Bu vaxt Bellanın iti də onlara qoşuldu və təsadüfən ikisini də səhifədən kənara atdı. Bella soruşdu: - İtim haradadır?

-Biz haradayıq? – Ben təəccübləndi.

- Səhv kitaba düşmüşük!

-Yaxşı, gəl yenə bayaqkı kitaba qayıdaq, - Ben təklif etdi.

Beləliklə onlar getdilər...





Ben və Bella hansı kitabdan gəldiklərini gülərüz kitabxanaçıya təsvir etdilər:

- Orada hündür binalar vardı...

- Bir də böyük it...

- Bildim hansı kitabdır, - kitabxanaçı dedi.

- O tərəfə gedin.

- Ümid edirəm ki, düz gedirik, - Bella dinləndi. O yanılmışdı. Bu, bizim kitabımız deyil!

- Görəsən, bunların mənası nədir? – Ben soruşdu.

- Məncə, demək istəyir ki, bu yolla gedək, - Bella cavab verdi.







Lakin işlər lap dolaşığa düşdü. Bella düşünməyə başladı və öz kitablarına gedən yolu tapdı. Sən demə bu yol meşənin içərisindəki köhnə evə aparırdı. Ben və Bella içəri girdilər. Evdəki qəribə görünüşlü qadın onları yeməyə dəvət etdi.

- Sağ olun, ancaq biz öz kitabımıza geri qayıtmalıyıq,-Bella nəzakətlə cavab verdi. Deyəsən, Ben geri qayıtmaq üçün yol tapmışdı...

- ...Birdən Ben və Bella təlimatlarla dolu bir kitabın içərisinə düşdülər.

- Məncə, biz təlimatları yerinə yetirməliyik, - Bella təklif etdi. Ben qışqırdı:

- Kitabı görürəm! Hava şarı uçmağa başladı. Sonra isə uyğun bir yerə endi...



...Uşaqlar bir yol nişanına rast gəldilər.

Onlar canavara oxşayan dəliyin içindən keçdilər.

- Bella sevindi:

- Ura! Biz öz kitabımıza qayıtdıq!







Biz başqa kitabın içində ilişib qalmışıq.
Yaxşı bir oxucu ilə yolu tapa bilərik!



# Şuşa uşaqların rəsmlərində





Gülarə Salmanova
17 yaş



Babazadə İnci
9 yaş



Zivər Rzayeva
13 yaş



Cəlil Kərimli, 10 yaş



Gülxanım Əmirli
17 yaş



Gülarə Salmanova
17 yaş



Gülxanım Əmirli, 17 yaş



Cəlil Kərimli
10 yaş



Kövsər Qurban, 8 yaş





# Mən necə İncəhörüm oldum...



Hörümçək, bəlkə də, ən çox qorxduğum varlıqdır. Heç uşaqların sevdiyi "Hörümçək-adam" filmi də ona qarşı olan qorxu hissimi yox edə bilmədi. Amma, bir gün hörümçəyə "ehtiyacım" yarandı. Belə ki, özüm dönüb oldum "hörümçək"...

- Bəs indi bu boyda materialı necə yerləşdirək ki, uşaqlar bezməsinlər? Hər tədbiri quru-quru yaza bilmərik axı... Jurnalda işləyən hər birimiz fikirləşməyə başladıq.

- Tapdım! Bizim Göy qurşağının personajı olmalıdır. Kitabxanada yaşaya bilən, ona zərər verməyən, hətta mifologiyada ağıllı hesab olunan canlı... Belə personajın diliylə uşaqlara ən çətin olanları anlatmaq asandır.

- Bayquş!

- Yox... Nə bayquş... Bakıda bayquş var?

- Siçan. Amma yox, siçan da yaramaz. Deməyəcəksən ki, "Salam, mən Siçanqulu bəyəm, kitablara qarovulçuluq edirəm, makulaturaya dönənləri də yeyirəm ki, kitabxanada zibil qalmasın"...

Gülməlidir....

- Deyəsən, tapdım. Ən zərərsizi hörümçəkdir. Dünyanın hər kitabxanasında var, ən təmizin də belə. Amma adı elə olmalıdır ki, uşaqlar onun hörümçək olduğunu bilsinlər, ancaq qorxmasınlar, iyrənməsinlər.

- Zərif bir ad olmalıdır. Zərif, incə, hörümçək...

- Adının bir tərəfi "İncə" olsun.

- O biri tərəfi də "hörüm" - hörümçəyin qısa forması. Məsələn, İncəhörüm.

- Əla! Az qala bütün hörümçəkləri sevdim, qəşəng addır...

O tapan, bu tapan - başladıq jurnalımızın oxucularıyla İncəhörümün diliylə danışmağa. Hərdən elə rola girirdim ki, səkkiz gözümün, səkkiz əl-ayağımın olduğunu az qala hiss edirdim. İncəhörümün hesabına uşaqlara nələrdən danışmadıq ki...

İncəhörümün köməyilə həyatdan, dostlardan, düşmənlərdən, vətənimizdən, zəfərimizdən, planetimizdən, olar-olmazlardan, acıdan-şirindən, məktəbdən, evdən, musiqidən, ədəbiyyatdan, kinodan, məşhur olanlardan, olmayanlardan, dünyanın olub-bitən işlərindən, heyvanlardan, bitkilərdən, əcaib-qəraibdən, alimlərlə onların kəşflərindən, kitablardan danışdıq. Hələ nə qədər danışılası sözlərimiz var...



Baş redaktor: Şəhla Qəmbərova
Korrektor: İlahə Quliyeva

Redaktor: Aygün Mütəllimova
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı rəsm: Gülxanım Əmirli
3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi

F. Köçərli adına Respublika Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879, Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
Qeydiyyat nömrəsi: № 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.
Təşkilati dəstək: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan

